# "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ"

## Mövzusu dəyirmi masada

**İki gün öncə paytaxtın Binəqədi rayonunda Ulu Öndərin doğum günüylə əlaqədar olaraq keçirilən silsilə tədbirlərdən biri də həyata vəsiqə almışdı. Belə ki, rayon Gənclər və İdman İdarəsinin Binəqədi rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın birgə layihəsi kimi gerçəkləşdirilən dəyirmi masada həm iştirakçılar, həm də çıxış edənlər gündəlikdə olan mövzunun faktların diliylə diqqətə təqdim ediblər.**



Tədbirin açılışında məlum olmuşdu ki, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında keçirilən dəyirmi masanın bilavasitə Ulu Öndərin anadan olmasının 96-cı ildönümünə həsr edilməsi heç də təsadüfi deyil. Yəni keçirilən "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunun müzakirəsi bilavasitə Binəqədi gənclərinin həyatında oynadığı rolla bağlıdı. Təbii ki, mövzunun bütün Azərbaycan gəncliyini əhatə etməsi birmənalıdır. Ona görə də tədbir iştirakçılarının hər birinin Ulu Öndərin onların həyatındakı rolunu dərk etməsi, ona önəm verməsi və həm də ordan özləri üçün gələcək ideyalarını formalaşdırması dəyirmi masada fikirlərini ifadə edənlərin ürəyindən gələn fikirlər idi.

Tədbirdə çıxış edən Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəsinin Rauf Həsənov birmənalı şəkildə Azərbaycan gəncliyinin örnəyi olan ümummilli liderimizin fəaliyyətindən bəhs etmişdi, ondan hər zaman öyrənməyin vacibliyini vurğulamışdı. İştirakçılar qarşısında çıxış edən İctimai Şuranın sədi Aslan Mehdiyev bildirmişdi ki, ona Ulu Öndərin rəhbərliyi altında işləmək, onu dəfələrlə görmək, onun tapşırıqlarını yerinə yetirmək xoşbəxtliyi ona nəsib olmuşdu. Ona görə də bu gün Ulu Öndərin həyat və fəaliyyətindən danışmaq onun üçün son dərəcə qürurverici. Aslan Mehdiyev vurğulamışdı ki, biz bu gün də ondan öyrənirik. Və hər birimizin, xüsusilə gənclərin əsas vəzifələrindən biri savadlı olmaq, dövləti, dövlətçiliyi sevmək, öz gələcək həyatlarında Ulu Öndərin tövsiyyələrindən yararlanmaqdı. Tədbirin sonunda gənclərə və "Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur" mövzusunda inşa yazısının qaliblərinə və bütövlükdə Binəqədinin sabahı olan insanlara uğurlar arzulamış, onların fikir və istəkləri dinlənilmişdi. Eləcə də yazı müsabiqəsinin qalibləri mükafatlandırılmışdı.

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət.-2019.-8 may.-S.3.